GAHRAMANOVA, Kemale (2014). "Nizami Gencevi Bakış Açısında Güzel İnsan Toplumu". *Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması. 26-28 Mayıs 2014.* Eskişehir 2013 Türk Dünyası Kültür Başkenti Ajansı (TDKB). Eskişehir, ss.539-546 (http://bilgelerzirvesi.org).

Kemale GAHRAMANOVA*

# NİZAMİ GENCEVİ BAKIŞ AÇISINDA GÜZEL İNSAN TOPLUMU

Qədim mədəniyyətə və tarixə malik olan türklərin mənəviyyat xəzinəsinin zənginləşməsində mütəfəkkirlərin böyük rolu olmuşdur. Bunlardan biri də ensklopedik biliyə malik olan Nizami Gəncəvidir. Nizami Gəncəvi hümanizm, cəmiyyət, şəxsiyyət və azadlığa aid düşüncələri ilə seçilir. Yaradıcılıqlarında öz dövrünü, xalq kutlələrinə olan zülmü əks etdirərək yaratdığı əsərlərlə insan şəxsiyyətin azadlığını və qürurunu, ağıl və iradəsini ön plana çəkib ədalətli cəmiyyət qurmağa, humanizmə və yaxşı əməllərə səsləmişdir.

1141-ci ildə Azərbaycanın qədim Gəncə şəhərində anadan olmuş, ömrü boyu orada yaşayıb yaratmış və 1209-cu ildə Gəncədə də vəfat etmişdir. Əsl adı İlyas idi, Nizami təxəllüsü idi, mənası "sözləri nizamlayan" deməkdir.

O təhsilini Gəncə mədrəsələrində almış, sonra şəxsi mütaliyə yolu ilə orta əsrin elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Türk dilindən başqa ərəb və fars dillərini də mükəmməl bilən şairin Yunan dili ilə də tanış olduğu, həmçinin qədim yunan tarix və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsəmişdi. Ömrü boyu Gəncədə yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Təqribən 1170-ci ildə Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaq ilə evlənmişdir.

Nizami Gəncəvi beş poeması ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") ədəbiyyata, həm də düşüncəyə yeni səs gətirmişdir. Nizaminin beş poeması sonralar "Xəmsə" ("Beşlik") adı altında birləşdirilmişdir.

* Doç. Dr. Bakü Devlet Üniversitesi.

Şeyx Nizami bir müsəlman olaraq İslam dinini böyük bir məhəbbətlə insanlara öyrətmişdir.”Xəmsə”yə daxil olan hər bir məsnəvisi Allahın və Peyğəmbərin mədhi ilə başlayır.

Hikməti gizlindir, hökmü aşikar,
Onun tərifinə dil aciz qalar.....
Varlıqlar hamısı onun möhtacı,
Onunsa heç kəsə yox ehtiyacı......
Ona qovuşmağa yol yoxdur fəqət,
Əqlə, düşüncəyə sığmaz bu hikmət.
Desək ki, göydədir o pərvərdigar,
Ona təzim edən yer tənha qalar.
Yox, əgər yerdədir, söyləsək, Allah,
Şənini alçaltmaq olmazmı günah?!2
Məbudun zatından danışan zaman
Axtarma nə göydə, nə yerdə məkan….(İq)
Hər zaman köməyə çağırram səni
Qapından ümüdsüz qaytarma məni
Ey Tanrı dərdimə sən eylə əlac
Bu möhtac kəslərə olmayım möhtac.("İskəndərnamə")
Heç kəs: «Köməksizəm» deməsin gərək
Köməksiz olana Allahdır kömək!
İlahi, nə qədər dünyada sağam,
Sənin xatirinlə yaşayacağam!

Azadlıq və ictimai bərabərlik motivlərindən çıxış edən Nizami Gəncəvi ədalətin bərqərar olmasının yollarını, bəxtiyar insan cəmiyyəti və onun həlli haqqında düşünmüş, insanlara həqiqi xoşbəxtlik bəxş etməyə qadir olan utopik cəmiyyəti tərənnüm etmişdir. Burada da İslam əxlaqını əsas götürmüşdü.

Nizaminin "İskəndəmamə" əsərində İskəndəri gözəl təbiətli qorumasız bağları, sürüləri, dükanları ilə hakimsiz bərabərlik və dostluq olan yerə gətirir, şəhərin əhalisi də qonaqpərvərdir.

İskəndərin təəcübünə onlar belə cavab verirlər:
Biz zəifik, ancaq dindarıq, doğruçuyuq, əyriliklə işimiz yoxdur.

Nizami din və etiqad haqqında təliminin mahiyyətini oradakı insanların düşüncələri ilə verir:

Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs,
Bizdə ağlayana heç kimsə gülməz...

Birini qəzəbli, acıqlı görsək,
Ona məsləhətlə eylərik kömək.
Qızıla, gümüşə aldanmaz heç kəs,
Onlar bizim yerdə bir şeyə dəyməz.

**Güzel insan toplum** arzusunda olan Nizami bilirdi ki insanın yaşadığı ortamda dostluk ve sevginin, huzur, mutluluk, barış, kardeşlik, hak ve adalet vacibdir, bunun üçün diger insanları, sevmesi, saygılı olması lazımdır. Yaradıcılığı ilə tanış olduqda arzuladığı cəmiyyətin bərqərar olması üçün üç hüsus görünür :
• İnsan ağlının və elmin vacibliyi;
• əxlaqi keyfiyyətlərinin vacibliyi;
• qadının cəmiyyətin bərabər hüquqlu, tam ləyaqətli bir üzv olması.
Nizami Gəncəvi bunu gerçəkləşdirmək üçün şəxsiyyətin əxlaqının, tərbiyəsinin vacib olduğunu, tələb və yollarını göstərirdi.
• **Əxlaqlı olmaq**Əxlaq məsələləri Nizamının yaradıcılıq leytmotivini təşkil edir. Gözəl əxlaqın əsasının sevgi və ədalət hissidir. Ədalət əsas kimi insanda digər əxlaqi keyfiyyətlərin yaranmasını şərtləndirir.. Ədalət olan yerdə cəhl və nadanlıq, zülm, özbaşnalıq, qəzəb, intiqam və kin-kudurət olmayacaq.
Vurub yıxmaqla deyil ağıllılıq, unutma,
Gücünü ədalətdən heç zaman uca tutma!(İq)

O dövrdə iqtidar sahibləri məsuliyyətə cəlb olunmurdular. Nizami təxəyyülü ilə zalım, əyləncə düşgünü olan hökmranları ədalətli dövlət xadiminə çevirmişdi “Xosrov və Şirin”əsərində Nizami Hürmüz şahın qanunları pozan doğma övladını cəzalandırır. Bu cəzanı göstərməklə qanun qarşısında hamının bərabər olması kimi dövrü üçün qabaqcıl bir ideya irəli sürür və dövrünün ədalətsizliklərindən şikayətlənir:

Hanı o ədalət, o insaf hanı?
Verə öz oğluna belə cəzanı.
İndi yüz yoxsulun tökülsə qanı,
Durub tərəf çıxan bir adam hanı?
Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət.

İnsanda yüksək əxlaqı keyfiyyətlərin formalaşmasının zəruri şərt kimi qəbul edir. Müsbət əxlaqı keyfiyyətlərdən: yaxşı rəftar, doğruluq,mərdlik,mərhəmətlı olmaq, cəsarət, şükr etmək,ədabli olmaqla tərbiyələndirir:

Əgər istər isən haqdan inayət,

Pislik eyləməyi kökündən tərk et. (İ)
Yamanlıq etməkdn uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq. (X)
Pis fikrə düşərsə yaxşı bir insan,
Özqünə yamanlıq edər hər zaman. (İ)4

Nizami səbirli olmaq haqda öz dəyərli tövsiyyələrini vermişdir:

Səbr etməklə insan yetər kamına,
Yavaş-yavaş çatar dilaramına.
Iş düyün düşərsə, bunu bil ki, sən
Səbr etmək yaxşıdır boş əlləşməkdən.
Açılar bir zaman düyünlər bütün,
Ancaq ki, tədriclə açılar düyün.

Həyatın məna və qayəsini xeyirxah işlərdə, yaxşılıq etməkdə görən arif yazır:

Həmişə dünyada yaxşılıq axtar,
Yaxşı ad almaqda əbədiyyat var. (İ)
Yaxşılıq etməsən əgər insana,
Böyüklük şərəfi verilməz sana. (L)
Quyuya salsan da yaxşılığı bil,
Yenə qayıdacaq, o itən deyil. (L)
Biri pislik etmiş olarsa sənə,
Sən yaxşılıq etsən bir özgəsinə-
Yaxşılıqla pisdən qorunmaq mümkün,
Dünyada yaxşılıq hər şeyə üstün. (Ş)

• Bununla bərabər, Öz mənliyini dərk etməyə,özünə hörmət etməyə,ləyaqətini başa düşərək, zorakılığın yox, insanlar arasında xeyirin, dostluğun, məhəbbətin hökm sürməsi uğrunda mübarizə aparmağa çağırır:

Otlara yaraşır başını əymək,
İnsanın başıysa ucada gərək. (Ş)

Kölə olmadığını söylərək insanın xasiyyətində, əxlaqi rəftar və davranışında bir sıra mənfi əxlaqı keyfiyyətlərə, həmçinin mənliyini alçaldan hadisələrə qarşı mübarizə etməyi də vacib bilib:

Neçin alçaqlara boyun əyirsən?
Oyuncaq olursan namərdlərə sən?5
Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən razı qalırsan? (L)

Mənfur adamlara qarşı da amansız olmağı doğru hesab edirdi.

Həyasız adama qarşı sərt rəftar

Yumşaq dolanmaqdan faydalı olar.(İ)

Zülm və zalıma qarşı mübarizə ideyası Nizami humanizminin çıxış nöqtəsi idi:

Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu olar xar

Bununla yanaşı digər insanların ləyaqətinə xələl gətirə bilən hərəkətlərdən çəkinməyı, hörmətlə yanaşmağı öyrədir.Düşüncəsinin əsas amili humanizm olan Nizami Gəncəvi üçün ən yüksək meyar insanlıq idi.Nizami irqə və xalqa mənsubluğundan asılı olmayaraq bütün insanları sevmiş və təbliğ etmişdir. Leyli və Məcnun əsərində deyir:

Əgər insansansa insanlığı sev.

İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində Türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır, fərqli fikir və mədəniyyətlərə göstərilən hörmətlə yanaşır. Nizami vahid din ideyasını irəli sürməklə xalqlar, millətlər, milli etnik qruplar, tayfalar arasında mövcud olan münaqişələrə son qoymaq istəyir. Nizami xalqların adını çəkərək də onların mənsubiyyətinə hörmətlə yanaşır. O qara dərili zəncinii açıq qəlbə və möhkəm xüsusiyyətə malik olduğunu qeyd edərək irqi mənsubiyyəti əsasında insana qiymət verməkdən çəkindirir:

Zənci dəmir kimi qara, parlaqdır,
Üzü qarasa da ürəyi ağdır.

• Əmək Öz şərəfini, ləyaqətini, namusunu lazımınca qoruya bilməyən, şəxsiyyətin və heysiyyatının tapdalanmasına dözən adamı əxlaqlı adam hesab etmir.Şərəf və ləyaqəti əməklə qazanmaq olduğunu ifadə edir:

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər. (L)

Nizaminin əxlaqi görüşlərində əməksevərlik, çalışqanlıq böyük yer tutur,əməkçı adamların üstünlüyünü göstərmişdi. Əməklə məşğul olmağı müstəqillik kəsb etmək üçün əsas vasitə hesab edir. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

Kərpickəsən kişi dastanında yaşılı insan onu lağa qoyan cavana cavabında qürurla yaşamağın yolunu əməklə bağlı olduğunu ifadə edir:

Qocalar kərpic kəsər, halallıqla yaşayar,
Kölələr, əsir qullar ağır yüklər daşıyar.
Qarşında boyun büküb əl açmayım deyə mən,
Əzəldən əl atmışam belə bir peşəyə mən.
Sokrat İskəndərə deyir:
Kim qane olarsa bir ovuc dənə
Dönməz dəyirmantək sənin dövrənə?
Arpa çörəyinə edib qənaət,
Buğda çörəyinə çəkmərəm minnət.

Yəni insana zülm hökm sürən dünyada öz mənliyini, insani ləyaqətini qorumaq üçün azımdır. insan qürurunu itirməmək naminə meyl edir, aza qane olurlar.

• Elm. Nizami Gəncəvi elmin insan cəmiyyətində aparıcı qüvvə olduğunu, bəşəriyyətin bunsuz keçinmədiyini dəfələrlə qeyd edərək elmin qüdrətini vurgulayırdı:

Qüvvət elmdədir – başqa cür heç kəs
heç kəsə üstünlük eləyə bilməz

Nizamiyə görə insanı başqalandıran fərqləndirən, fəaliyyətə təhrik edən ağıl vı elm kamillik məktəbidir:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ,
Ərəbcə, dəricə, yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən.
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.

Ən böyük neməti var-dövlətdə deyil agıl olduğunu vurğulayaraq bütün insanları oxunmağa, təhsil almağa, elmi mənimsəməyə çağırırdı:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.( Yeddi gözəl",)
Kamalına görədir şan-şöhrətin dünyada,
Onsuz adın, hünərin olar çətin dünyada. (S)7

Baxmayaraq ki o zaman məktəb və mədrəsələr məcscidlərin yanında təşkil edilib ruhanilərin rəhbərliyi altında idi, Nizami öz əsərlərində 2 məktəbi (Leyli və Məcnunun öxuduğu və İskəndərnamədə Aristotelin məktəbini) dini təşkilatlarla əlaqəsi

olmayan məktəblər kimi təsvir edirdi. Elmi, fəlsəfəni və məntiqin vacibliliyi fikrini irəli sürməsi, təbliğ etdiyi rasionalizmin əhəmiyyətini vurgulamaq orta əsr şəraitində böyük iradə tələb edirdi. Elmi-intellektual səviyyəsi, təfəkkürü, ağılı ilə seçilən qəhrəmanları dini biliklərlə bərabər dünyəvi biliklərin də öyrədilməsinin, riyaziyyat, həndəsə, astronomiya, kosmologiya, təbabət və s. vacibliyini "İsgəndərnamə"də Isgəndərin təlim alması ilə göstərmişdir. Isgəndərin hərtərəfli inkişafını təmin etmək üçün atası onu Niqumaş adlı alimə tapşırır. O, Isgəndərin bütün elmlərin sirlərinə yiyələnməsini təmin edir. Nizami Gəncəvi yaşadığı dövrü qabaqlayaraq təhsilin dünyəviliyi, qadınların kişilərlə bərabər təhsil almaq hüququ və s. kimi ideyaları irəli sürmüşdür. XII əsrdə qadın təhsilinə qarşı cəmiyyətdə özünü göstərən mənfi münasibətin hökm sürdüyü vaxt oğlan və qızların məktəbdə birgə təhsil aldıqlarına inanmaq çətindir. Nizami birgə təhsil keçən məktəbi təsvir etməklə öz arzusunu göstərirdi. Kadınları da cəmiyyətin tam ləyaqətli bir üzvu kimi görməyi arzulayırdı, onları heç bir sahədə kişilərdən əksik olmadığını qeyd edirdi:

İgidsənsə, kişilik adından utan barı,
Ərsiz hünər göstərən qadından utan barı.

Qadın qıhrəmanlar yetişdirir, tərbiyə edir.Lazım gələndə də bir döyüşçü ola bilir:

Ceyran çətin vaxtda şir olur bəzən. (X)

Nizami qadının da haqsızlığıa qarşı səsinin ucaltmasını gösərir. Sirlər xəzinəsi poemasında dul bir qadının hünəri, mənəviyyatını şeytana satmış hökmdarın nadanlığına qarşı qoyulmuşdur.

Heysiyyatiın tapdanan qadın təhqirlərə dözmür, ölümü gözünə alaraq şahın qarşısını kəsərək onu ittiham edir:

Sən dadıma çatmasan, şah deməərəm adına,
Qiyamətin günündə çatmasınlar dadına.
Dad, aman", deyə-deyə qalan görüm səni mən,
Zülmünün cəzasını alan görüm səni mən.
Hər elin hökmdarı el dərdinə qalandı,
Zülmün hara çatıb ki, var-yoxumuz talandı.
Qarıların nəyi var, quldurluqdan sən utan!
Utan, utan, onların ağ birçəyindən utan!"

"Xosrov və Şirin"əsərində bir qadın olaraq Şirinin hakimiyyətə gələndə kişilərdən daha ədalətli və ağıllı olduğunu təsvir edir:

Şirinin əlinə çatanda şahliq
Ölkədən həryana yayıldı işıq.

Ədalətlə etdi rəiyyəti şad,
Məhbuslar olunda həbsdən azad.8

Xosrovu tükənməz bir məhəbbətlə sevən şahzadə Şirini saf mənəviyyata malik, ismətli qadınlıq qürurunu yüksək tutan biri kimi yüksəldir. Xosrovun gizlicə saraya gəlmək təklifinə belə cavab verir:

Mən gövhərəm, neçin gərək əksiləm:
Çağrılmamış gedəm, məgər mən yeləm?

Şirin yalnız kəbin kəsildikdən sonra evlənir və Xosrov ölən zaman intihar edir. Şair qadını ülvi bir varlıq kimi tərifləmişdir:

Alqış bu ölümə, əhsən Şirinə:
Öldürən Şirinə, ölən Şirinə.
Məhəbbət yolunda ölüm budur, bax,
Canana belədir canı tapşırmaq…
Çox gözəl arvad var mərdlikdə bir şir,
Çox ipək içində şirlər gizlənir.

“Sirlər xəzinəsi” əsərində öz fərasəti ilə Bəhram şahı məğlub edən Fitnə adlı qadın əzm və iradə ilə seçilir.” Adam vərdiş ilə hər bir işi edə bilər.” –deyərək Şahı güc və məharətinə görə tərifləmir.

Nizami Gəncəvi güclü qadın qəhrəmanları yaradaraq bərabər hüquqlu vətəndaş kimi yanaşırdı. O insanın mənəvi kamilləşməsi cəmiyyətin mənəvi kamilləşməsinin gətirəcəyini idrak edərək arzuladığı insan portretlərini yaratmışdı. Bunlar şəxsiyyətin mənəvi-əxlaqi keyfiyyətləri, onun özünə və başqalarına münasibətinin xarakteri barədə Nizami ideyalarının məntiqi yekunlaşdırılması idi.